Bayramov, V. 44 günlük Vətən müharibəsi ilə tarixi ədalət bərpa edildi / Vaqif Bayramov // Xalq qəzeti. - 2021. - 2 noyabr. - № 237. - S. 7.

Biz Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrini özümüz yerinə yetirdik. Biz BMT-nin Nizamnaməsini rəhbər tutaraq hərəkət etdik. 51-ci maddə hər bir ölkənin özünümüdafiə hüququnu tanıyır. Beləliklə, biz bütün beynəlxalq alətlərdən istifadə edərək, öz ərazi bütövlüyümüzü bərpa etdik.
İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Silahlı qüvvələrimiz Ermənistanın 30 il ərzində "məğlubedilməzliyi" ilə qürrələndiyi, "hərbi qüdrəti" ilə öyündüyü ordusunu ötən il 44 günlük Vətən müharibəsində darmadağın etdi. Azərbaycan güc yolu ilə tarixi haqq-ədaləti gerçəkləşdirdi, düşmənə öz yerini göstərdi. Bununla da işğal altında olan ərazilərin boşaldılması üzrə BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsi uğurla yerinə yetirildi və tarixə "Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi" adı ilə düşmüş mürəkkəb bir etno-siyasi qarşıdurma aradan qaldırıldı. Beləliklə, İkinci Qarabağ müharibəsində Ermənistanın biabırçı məğlubiyyəti ilə Cənubi Qafqazda bu qlobal münaqişə sona çatdırıldı.
Müharibəyə qədər "Dağlıq Qarabağ münaqişəsi" məqsədli şəkildə "dondurulmuş" hala gətirilmişdi və uzun müddət elə belə də saxlanılırdı. Əslində, məqsəd də elə bu idi. Yəni, düşmən işğalçı siyasət yürütməklə, qəsbkarlığını davam etdirməklə daim demokratiyadan, insan haqlarından dəm vuran havadarlarının dəstəyi ilə 1994-cü ildə yaranmış "status-kvo"nu ATƏT-in Minsk qrupunun nəzarəti altında əbədiləşdirmək istəyirdi.
Ermənistan da bu cəzasızlıq şəraitində, hətta ərazisini "hərbi uğurlarla" bir qədər də genişləndirib Qarabağ məsələsinə nöqtə qoymağı düşünürdü. Amma Azərbaycan ötən il sen-tyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti hücumuna əks-həmlə əməliyyatları ilə cavab verməklə müharibəyə başladl və 44 gün ərzində düşmən ordusunu sıradan çıxartmaqla onu təslim aktını imzalamağa məcbur etdi. Bununla da ölkəmiz acgöz və xain qonşu Ermənistanı cəzalandırmaqla, beynəlxalq qanun çərçivəsində 30 il işğal altında saxlanılan ərazilərini azad etdi, tam həcmdə özünün ərazi bütövlüyünü reallaşdırdı, bir milyondan çox məcburi köçkünün öz doğma torpaqlarına qayıdışını şərtləndirdi.
Qəribədir ki, müharibə bitəndən, 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanat imzalanandan sonra Ermənistanın dəstəkçiləri, havadarları tərəfindən işğalçının acı məğlubiyyəti ilə bağlı məyusluqlar ifadə olundu, qərəzli qətnamələr qəbul edildi, Azərbaycana qarşı qarayaxma kampaniyasına başlanıldı. Ermənistanın dəst-xətti ilə "Türkiyə hərbiçiləri" və "Suriya muzdluları" kimi saxta və yalan məlumatlar əsasında yeni problemlər yaradılmasına çalı-şıldı. Əslində, bütün bu siyasi oyunlar onların Ermənistanın işğal siyasətini davam etdirməsi, ümumiyyətlə, Cənubi Qafqazda sülhün, əmin-amanlığın bərpa olunmaması istəyindən xəbər verirdi.
Ermənistanın havadarları tərəfindən 30 ilə yaxın bir dövrdə bu ölkənin qəsbkar siyasətinə heç bir münasibət bildirilmir, heç bir təpgi edilmirdi. Azərbaycan isə bu müddətdə Ermənistanın işğal altında saxladığı ərazilərin azad olunması üçün daim diplomatik təmkin

göstərir, beynəlxalq təşkilatlar və aparıcı dövlətlərin münaqişəni danışıqlar yolu ilə tənzimləmək çağırışlarına həssaslıqla yanaşırdı. Lakin bunun müqabilində, qeyd etdiyimiz kimi, düşmən ölkəyə ciddi beynəlxalq təzyiqin olmaması vəziyyəti getdikcə gərginləşdirirdi. Ermənistan bütün bunlar azmış kimi, Birləşmiş Millətlər Təşkilatının (BMT) hələ 1993-cü ildə qəbul edilən 822, 853, 874, 884 saylı qətnamələrində Azərbaycanın işğal altındakı ərazilərinin qeyd-şərtsiz azad edilməsi tələblərini yerinə yetirmək əvəzinə, yeni torpaqlar ələ keçirməyə cəhd göstərir, bununla bağlı təxribatlar törədirdi. İşğalçı ölkənin keçmiş rəhbərləri, eləcə də, baş nazir Nikol Paşinyan tərəfindən Azərbaycan daim müharibə ilə hədələnirdi. Məsələn, Nikol Paşinyan hələ baş nazir seçilməmişdən əvvəl, Ermənistan parlamentinə müraciətində Azərbaycanın işğal olunmuş ərazilərində qurulan qanunsuz rejimin danışıqlarda iştirak etməsi məsələsini qaldırır, Dağlıq Qarabağda "düşmənin qarşısının alınması" mexanizminin təkmilləşdirilməsi məsələsinin müzakirəsini aparır, ayrı-ayrı vaxtlarda "Artsax Ermənistandır, nöqtə" kimi təcavüzkar şü-arlar səsləndirirdi. Eyni zamanda, Livandan olan erməni ailələrinin, Şuşa şəhəri daxil olmaqla, işğal olunan ərazilərdə məskunlaşmasına şərait yaratmaqla qanunsuz məskunlaşma siyasətini reallaşdırırdı.

Bax, bütün bunlara– Ermənistanın müharibədən əvvəl sülh danışıqlarını bilərəkdən pozduğuna, ölkəmizə qarşı davamlı təxribatlar törətdiyinə, yeni ərazilər qəsb etmək iddiaları səsləndirdiyinə görə, düşmənə vaxtında sanksiyalar tətbiq olunsaydı, Minsk qrupunun həmsədrləri– dünyanın üç aparıcı ölkəsi potensialından yararlanaraq, işğalçını geri çəkilməyə məcbur etsəydi, təbii ki, müharibə də baş verməyəcəkdi.

Bax, elə məhz buna görə də savaşa görə məsuliyyət təkcə Ermənistanın deyil, həmçinin onu beynəlxalq hüquqa riayət etməyə məcbur edə bilməyən və ya bunu etmək istəməyənlərin də üzərinə düşdü. Nəticədə Azərbaycan bu qətnamələri beynəlxalq hüququn normaları çərçivəsində özü həyata keçirdi, ədaləti, beynəlxalq hüququn normalarını bərpa etdi.

Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasət nəticəsində ölkəmizin beynəlxalq səviyyədə mövqeləri gücləndiyi üçün beynəlxalq ictimaiyyət Azərbaycanın İkinci Qarabağ müharibəsinin beynəlxalq hüquqa uyğun olduğunu anlayışla qəbul etdi. Dövlətimizin başçısı da ayrı-ayrı çıxışlarında Azərbaycanın bu savaşdan qalib kimi ayrılmasını, əslində, sülhə və təhlükəsizliyə töhfə vermək kimi dəyərləndirdi.

Silahlı qüvvələrimiz 44 günlük savaşla dövlətçiliyimizin ən şərəfli səhifələrini yazdı və əldə etdiyi tarixi zəfərlə Azərbaycan faşist ideologiyasından bəhrələnən Ermənistanın uzun müddətli işğalına son qoydu.

Azərbaycan Qarabağın incisi olan Şuşa şəhərini, onun ardınca bir gündə 70-dən artıq kəndi, 8 strateji yüksəkliyi işğalçıdan təmizləməklə, Ermənistanı diz çökdürüb kapitulyasiyaya məcbur etdi.

Beləliklə, otuz il ərzində aparılan danışıqlar prosesində düşmən dövlət reallaşdırmaq istədiklərinin heç birini həyata keçirə bilmədi, Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi gerçəkləşmədi, bu bölgədə yeni erməni dövlətinin yaradılması planları isə tamamilə alt-üst oldu. Halbuki, uzun bir dövrdə sülh danışıqları zamanı hər vəchlə Ermənistanın maraqlarının təmin edilməsinə cəhdlər olunurdu, Azərbaycan Silahlı Qüvvələrinin keçmiş DQMV-yə, o cümlədən, Şuşa şəhərinə girməsi, ümumiyyətlə, yaxın

buraxılmırdı. Hətta keçmiş Şaumyan, indiki Goranboy rayonunun bir hissəsinin ermənilərin nəzarətinə verilməsi tələb edilirdi. Lakin parlaq qələbə ilə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev yeni bir reallıq yaratdı, Şuşa şəhəri də daxil olmaqla, Dağlıq Qarabağın böyük bir hissəsi Azərbaycan Ordusunun nəzarətinə keçdi.

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu canı-qanı bahasına Ermənistan ordusunun məğlubedilməzliyi barədə illərdən bəri formalaşdırılan mifi 44 günə dağıtdı, bütün qüvvələri Azərbaycan xalqının iradəsi ilə hesablaşmağa vadar etdi, Azərbaycanın ərazi bütövlüyünü gerçəkləşdirdi. Sübut edildi ki, Azərbaycanın razılığı olmadan Qarabağla bağlı heç bir qərar verilə bilməz. İnzibati ərazisi xeyli böyük olan Kəlbəcər, Ağdam və Laçının şəhid vermədən, qan tökülmədən geri qaytarılması da reallaşdı. Şuşa şəhəri, Xocavənd, o cümlədən, Hadrut qəsəbəsi, Kəlbəcər, Ağdam və Laçının geri qaytarılması isə Qarabağa gedən bütün strateji yolların, yüksəkliklərin, kommunikasiya xətlərinin tamamilə Azərbaycan Silahlı Qüvvələrinin nəzarətinə keçməsi ilə yekunlaşdı.

Onu da vurğulayaq ki, Azərbaycanın möhtəşəm zəfəri ilə Ermənistanın öz müqəddəratını təyinetmə ilə əlaqədar iddiaları qüvvədən düşdü, bütün məsələlərin yalnız respublikamızın ərazi bütövlüyü prinsipinə əsasən həlli gerçəkləşdi.

Ermənistan və onun havadarları tərəfindən Vətən müharibəsinin gedişində hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərildi. Prezident İlham Əliyev qəti siyasi iradə nümayiş etdirdi, bütün təzyiqlərə mərdanə şəkildə sinə gərərək onları dəf etdi, öz prinsipial mövqeyindən dönmədi. Dövlətimizin başçısı dünyanın aparıcı mediasına verdiyi 30-a yaxın müsahibə dünya informasiya məkanında ölkəmizə qarşı olan hücumları darmadağın etdi.

Beləliklə, Ermənistanın və onun havadarlarının işğala və tədricən Azərbaycan ərazilərinin ilhaqına əsaslanan planları alt-üst oldu. Regionda Azərbaycanın maraqlarına cavab verən yeni siyasi reallıq yarandı. Yekun nəticədə, Azərbaycan vətəndaşlarının uzun illər davam edən torpaq həsrətinə son qoyuldu. Prezident İlham Əliyev nəyi necə və nə zaman etməyi özünün yaxşı bildiyini bir daha nümayiş etdirdi.

Bu qələbə azərbaycanlılar haqqında məğlub xalq sindromunu sındırdı, xalqın inamını özünə qaytardı. Bütün dünya Azərbaycan xalqının heç vaxt məğlubiyyətlə barışmadığının və öz amalına qovuşduğunun şahidi oldu. Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olunmasını şərtləndirdi. Yeri gəlmişkən, ordumuzun Vətən müharibəsini parlaq qələbə ilə başa çatdırmasını şərtləndirən bir amili də diqqətə çatdıraq. Bu, işğal dövründə silahlı qüvvələrimizin güclənməsi məsələsinə xüsusilə önəm verilməsidir. Ötən illər ərzində ordumuz Ali Baş Komandanın diqqəti və səyi nəticəsində müasir döyüş vasitələri ilə silahlandırıldı, artilleriya və aviasiyanın, eləcə də, digər sahələrin inkişaf etdirilməsinə böyük əhəmiyyət verildi.

Vətən müharibəsindəki qələbə Ermənistanın işğalçılıq siyasəti üzərində qurulan dövlətçilik sütunlarını yerlə-yeksan etdi. Məhz bu qələbəni bizə qazandıran şəhidlərimizin qəhrəmanlığı sayəsində Ermənistanın siyasi-hərbi rəhbərliyinin onilliklər boyu yaradığı mif darmadağın oldu. Yüzlərlə zirehli və digər texnikanı, artilleriya vasitələrini, raket sistemlərini döyüş meydanında atıb qaçan Ermənistan ordusu hazırda XXI əsrin ən aciz, fərarilər ordusu kimi xarakterizə edilir.

Əzmkarlıqla, şücaətlə döyüşən ordumuzun sayəsində Ermənistan bu gün çox dərin siyasi, iqtisadi, hərbi, demoqrafik böhran günlərini yaşayır. Azərbaycan isə artıq işğaldan azad olunan ərazilərin bərpasını müxtəlif istiqamətlərdə və paralel həyata keçirir.